AZƏRBAYCAN www.azerbaijan-news.az

# "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 72; 2013, № 7, maddə 789; 2014, № 10, maddə 1160) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.0.6-cı maddə əlavə edilsin:

"1.0.6. Maliyyə bazarlarına nəzarət orqanı - maliyyə bazarlarında tənzimləmə və nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum.".

1.2. 2.1-ci maddədə "Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank)" sözlərindən sonra "və maliyyə bazarlarına nəzarət orqanının" sözləri əlavə edilsin.

1.3. 2.1-ci və 18.7.1-ci maddələr istisna olmaqla, mətn üzrə ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ilə əvəz edilsin.

1.4. 15.3-cü maddədə "aidiyyəti dövlət orqanından" sözləri "müvafiq" sözü ilə əvəz edilsin.

1.5. 20.1-ci maddədə "qanunvericilik aktlarına" sözləri "normativ hüquqi və normativ xarakterli aktlara" sözləri ilə əvəz edilsin.

1.6. 25.1.4-cü maddədə "Mərkəzi Bankın" sözlərindən əvvəl "maliyyə bazarlarına nəzarət orqanının və ya" sözləri əlavə edilsin.

1.7. Aşağıdakı məzmunda 25.1-1-ci maddə əlavə edilsin:

"25.1-1. Bu qanunun 25.1.4-cü maddəsində göstərilən əsas olduqda, səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə Mərkəzi Bank lisenziyanın və ya icazənin ləğv edilməsi üçün maliyyə bazarlarına nəzarət orqanına əsaslandırılmış yazılı müraciət edir.".

1.8. Aşağıdakı məzmunda 25-1-ci maddə əlavə edilsin:

"**Maddə 25-1.** Maliyyə bazarlarına nəzarət orqanına ödənilən haqlar

Bank olmayan kredit təşkilatları maliyyə bazarlarına nəzarət orqanına həmin orqan tərəfindən müəyyən edilmiş məbləğdə və qaydada haqlar ödəyirlər.".

**Maddə 2.** Bu qanun qüvvəyə mindiyi tarixədək bank olmayan kredit təşkilatlarının fəaliyyətinə verilmiş lisenziyalar, habelə həmin fəaliyyətdən irəli gələrək verilmiş icazələr qanunla müəyyən edilmiş hallarda ləğv edilənədək öz qüvvəsini saxlayır və onların yenidən rəsmiləşdirilməsi tələb olunmur.

**Maddə 3.** Maliyyə bazarlarına nəzarət haqqında müvafiq qanun qəbul edilənədək bank olmayan kredit təşkilatlarında bank fəaliyyətinin yoxlanılması maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilən qaydada aparılır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2016-cı il*